Respublika .- 2024.- 21 sentyabr (№206).

COP29 Baku Azerbaijan

*Yaşıl dünya naminə həmrəy olaq!*



***COP** - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

**COP29**
BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası

# BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının yüksək səviyyəli rəsmisi "29 iqlim söhbətləri" çərçivəsində ADA Universitetində olub





**Sentyabrın 20-də BMT-nin Qaçqınlar üzrə Ali Komissarının iqlim fəaliyyəti üzrə xüsusi məsləhətçisi Endryu Harperin iştirakı ilə ADA Universitetində "İqlim böhranının təsirləri: Didərginlik və artan risklər" mövzusunda sessiya keçirilib. "29 İqlim Söhbətləri: COP29-a gedən yol" təşəbbüsü çərçivəsində təşkil olunan bu sessiyada iqlimlə əlaqədar didərgin düşmüş icmaların himayəsinin və onların qlobal iqlim siyasətinə daxil edilməsinin vacibliyi vurğulanıb.**

ADA Universitetinin prorektoru Dr. Fariz İsmayılzadə iştirakçıları salamlayaraq iqlim dəyişikliyi və didərginlik məsələlərini həll etmənin vacibliyini qeyd edib. BMT-nin Azərbaycan üzrə Rezident Koordinatorunun vəzifəsini müvəqqəti icra edən Nasar Hayat qonağı təqdim edərək, onun BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının iqlim böhranına cavab tədbirlərini və böyük qaçqın böhranlarını idarə etməsindəki mühüm rolundan danışıb.

ADA Universitetinin professoru Damjan Krnyeviç Mişkoviç tərəfindən aparılan interaktiv sessiyada Harper münaqişələr nəticəsində didərgin düşən insanların, eləcə də iqlim dəyişikliyindən təsirlənənlərin həssaslığını vurğulayıb. O qeyd edib ki, qadınlar və uşaqlar kimi didərgin düşmüş icmalar resurs çatışmazlığı və uyğunlaşma qabiliyyətinin olmaması səbəbindən çətinlikliklərlə qeyri-mütənasib şəkildə üzləşirlər. Müzakirələrdə, xüsusilə COP29 ərəfəsində, bu həssas əhali üçün iqlim maliyyəsinin ayrılmasının və onların qlobal iqlim siyasətinə daxil edilməsinin vacibliyi vurğulanıb.

İtki və Zərər Fondu İdarə Heyətinin üçüncü iclasında iştirak etmək üçün Azərbaycana səfəri çərçivəsində Harper COP29-un müəyyən edilmiş Prezidenti, Azərbaycan Respublikasının Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və COP29-un baş danışıqçısının müşaviri, səfir Elşad İsgəndərovla görüşüb. Müzakirələrdə Azərbaycanın COP29-a hazırlıqları ilə yanaşı, zorla didərgin salınan əhalinin İtki və Zərər Fondu, adaptasiya mexanizmləri və COP danışıqları çərçivəsində məsləhətləşmələrdə və qərar qəbuletmə proseslərində iştirakının zəruriliyi vurğulanıb.

Harper, xüsusən iqlim dəyişikliyi və didərginlik vəziyyətinin təsirlərinə ən çox məruz qalan qadınlar və uşaqlar üçün fiziki təhlükəsizlik məsələlərinin həllinin vacibliyini qeyd edib. Azərbaycanın iqlim məsələlərinin qlobal həlli istiqamətindəki liderliyinə və əhəmiyyətli töhfələr verəcəyinə nikbin yanaşdığını bildirən Harper, həssas durumda olan icmaların himayə olunması və iqlim maliyyələşdirməsini gücləndirmək üçün qlobal əməkdaşlığın və daha güclü maliyyə dəstəyinin əhəmiyyətindən danışıb. Endryu Harper sessiya çərçivəsində "Respublika" qəzetinin əməkdaşının bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsinin iqlim dəyişmələrinin qarşısını alınmasına necə töhfə verəcəyi ilə bağlı sualını da cavablandırıb. Endryu Harper qeyd edib ki, "UNCHR" bu xətti dəstəkləyir. Amma bu bütünlükdə həll yolu deyil. Çünki iqlim dəyişmələri ilə mübarizə üçün böyük məbləğdə investisiyalar tələb olunur. Bu baxımdan böyük ölkələrin məsələyə daha çox təşəbbüs göstərməsi arzuolunandır.

Xatırladaq ki, BMT-nin təşəbbüsü ilə "29 İqlim söhbəti: COP29-a gedən yol" tədbirlər silsiləsi, Bakıda 2024-cü ilin noyabrında keçiriləcək COP29-a hazırlıq məqsədilə müxtəlif sahələr üzrə əməkdaşlığı və dialoqu inkişaf etdirməyə xidmət edir.

**Nurlan ABDALOV,**
**"Respublika".**